


# POLIS

AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI

www.pq.mia.gov.az

polisazerbaycan

27 noyabr 2025-ci il
Cümə axşamı

1933-cü ildən çıxır
№ 46 (3758)


# Azərbaycan bölgəyə sülh gətirir

**Azərbaycan prezidenti İlham Əliyevin qətiyyətli siyasi iradəsi regionu yeni bir dövrə çıxarıb. Bu dövr Azərbaycanı təkcə Cənubi Qafqazda deyil, daha geniş coğrafiyada nüfuz sahibi edən sülh, əməkdaşlıq və inkişaf mərhələsidir.**



## Ölkəmizin sabitlik modeli nümunə göstərilir

Müharibədə qələbə qazanan, işğala son qoyan və suverenliyini tam bərpa edən ölkəmiz bu uğurları ilə həm müasir dünya tarixinə öz adını yazdı, həm də bölgədə de-fakto sülhün əsasını qoydu. Bu gün qlobal sülh sammitlərində Azərbaycanın yaratdığı sabitlik modeli nümunə göstərilir. Onilliklər boyu geosiyasi planların, ikili standartlı beynəlxalq qurumların fəaliyyəti regionu qaranlıq münaqişə zonasına çevirmişdi. ATƏT-in keçmiş Minsk qrupu kimi qurumların fəaliyyətsizliyi səbəbindən münaqişənin həlli mümkünsüz görünürdü. Lakin Azərbaycan işğal faktı ilə heç vaxt barışmadı. Ulu

> *Azərbaycanın qonşuluq siyasəti bölgənin inkişafına yönəlib*

Öndər Heydər Əliyevdən başlayaraq Prezident İlham Əliyevə qədər bütün mərhələlərdə haqq səsimiz beynəlxalq tribunalardan səsləndirildi və Qarabağ məsələsi gündəmdə saxlanıldı.

İllər boyunca Ermənistanın işğalçı siyasətinin ifşası üçün geniş diplomatik iş aparıldı. Danışıqların nəticəsiz qalmasına baxmayaraq, Azərbaycan ərazi bütövlüyünü bərpa etmək üçün siyasi, diplomatik və hərbi gücünü səfərbər etdi. Prezident İlham Əliyevin 2017-ci ildə BMT Baş Assambleyasında səsləndirdiyi fikirlər — Ermənistanın BMT Təhlükəsizlik Şurasının qətnamələrini icra etməməsi və buna görə cəzasız qalması — beynəlxalq hüquqa ciddi çağırış idi. Üç il sonra Azərbaycan həmin qətnamələrin icrasını özü təmin etdi və Qarabağ düyününü açdı.

İkinci Qarabağ müharibəsindən sonra ölkəmizin normallaşma təşəbbüsləri bölgədə faktiki sülh vəziyyətinin yaranmasına gətirib çıxardı. 8 avqust tarixli Vaşinqton görüşü uzunmüddətli inkişaf üçün yeni mərhələ açdı. Bu proses təkcə Cənubi Qafqazı deyil, daha geniş regionu əhatə edən əməkdaşlıq mühiti formalaşdırır.

2024-cü ildə Ağ Evdə əldə olunan razılaşmalardan biri də Zəngəzur dəhlizinin (TRIPP) işə düşməsi ilə bağlıdır. Azərbaycan tərəfindən dəhlizin həm dəmir yolu, həm də avtomobil yolu hissəsinin tikintisi başa çatmaq üzrədir. İlkin mərhələdə 15 milyon ton yükdaşıma gücünə malik TRIPP Orta dəhlizin əsas arteriyasına çevriləcək və beynəlxalq ticarətə yeni nəfəs gətirəcək.Ermənistanda konstitusiya dəyişikliyi nəticəsində Azərbaycana qarşı ərazi iddiasının aradan qaldırılması sülh müqaviləsinin imzalanmasını mümkün edəcək. Bununla yanaşı, sülhün mühüm elementi olan qarşılıqlı etimad mühiti də formalaşır. Artıq iki ölkənin vətəndaş cəmiyyəti nümayəndələrinin vasitəçisiz görüşləri keçirilir. Bu, ictimai səviyyədə dialoqun gücləndirilməsi baxımından önəmli addımdır.

Azərbaycanın Ermənistana qarşı uzun illər mövcud olan tranzit məhdudiyyətlərini aradan qaldırması da mühüm jestdir. Uzun müddət dalan vəziyyətində qalan Ermənistan artıq regionun iqtisadi arteriyalarına qoşulmaq imkanı əldə edir.

Bütün bu addımlar göstərir ki, tərəflər arasında normallaşma istiqamətində real irəliləyiş var. Lakin cəmiyyətlərin sülhə hazırlanması zaman tələb edən prosesdir. Davamlı etimad quruculuğu addımları bu istiqamətdə əsas rol oynayacaq.

Yaranan yeni geosiyasi reallıqlar fonunda Azərbaycan özünün sülh və əməkdaşlıq gündəliyini ardıcıl şəkildə həyata keçirir. Bu gün Cənubi Qafqazdakı proseslər məhz Azərbaycanın yazdığı sülh ssenarisi üzrə irəliləyir və bölgə davamlı sabitliyə doğru addımlayır.

# Enerji mərkəzinə çevrilirik

## Azərbaycan Mərkəzi Asiya ilə Avropa arasında yeni enerji körpüsü qurur

Azərbaycan Mərkəzi Asiya–Azərbaycan Transxəzər Yaşıl Enerji Dəhlizinin yaradılması ilə regionun əsas enerji mərkəzinə çevrilir. Beynəlxalq müsabiqənin nəticələrinə görə, İtaliyanın "CESI S.p.A." şirkəti "Green Corridor Alliance" MMC-nin təşəbbüsü olan layihənin texniki-iqtisadi əsaslandırmasının ilk mərhələsini həyata keçirəcək.

Bu mərhələnin maliyyələşdirilməsi Asiya İnkişaf Bankı (ADB) və Asiya İnfrastruktur İnvestisiya Bankı (AİİB) tərəfindən paritet əsasda təmin olunur. Xatırladaq ki, ADB məsləhətçi seçimi üçün tender elan etmiş və yüksək ixtisaslı texniki ekspertizası ilə seçilən "CESI S.p.A." qalib olmuşdu.

Layihənin əhəmiyyəti böyükdür. O region ölkələrinin enerji sistemlərinin inteqrasiyasını dərinləşdirir, bərpaolunan enerjinin transregional ixracına imkan yaradır və Azərbaycanın enerji portfelinə yeni strateji xətt əlavə edir. COP29 çərçivəsində Azərbaycan, Qazaxıstan və Özbəkistan liderləri yaşıl enerji sahəsində strateji tərəfdaşlıq sazişi imzalayaraq Transxəzər Yaşıl Enerji Dəhlizinin əsasını qoydular. Eyni zamanda üç ölkənin enerji şirkətlərini birləşdirən "Green Corridor Alliance" yaradıldı.

Bu layihə həmçinin yeni sənaye imkanları, iş yerləri və ixrac potensialı deməkdir. 1200 km uzunluğunda dənizaltı kabelin çəkilməsini nəzərdə tutan nəhəng infrastrukturun dəyəri təxminən 10 milyard avro olsa da, artıq böyük investor marağı formalaşıb. Təkcə Özbəkistanda bərpaolunan enerjiyə 2023-2024-cü illərdə 4 milyard avrodan çox sərmayə yatırılıb ki, bu, regionun gələcək enerji xəritəsinin yenidən qurulduğunu göstərir.

Mütəxəssislər bildirir ki, son illərdə dünya yeni transformasiya mərhələsinə daxil olub. 4-cü Sənaye İnqilabı, süni intellekt və robotlaşma elektrik enerjisinə olan tələbatı kəskin artırır. Lakin artan enerji ehtiyacı ekoloji çağırışları da gücləndirir. Buna görə alternativ enerji mənbələri qlobal səviyyədə prioritetə çevrilib, ənənəvi enerji layihələri isə investisiya baxımından geri plana düşür.

Avropada günəşli günlərin azlığı səbəbindən diqqəti Mərkəzi Asiya ölkələrinin — Qazaxıstan, Özbəkistan və Qırğızıstanın — günəş, külək və su enerjisi potensialına yönəldib. Bu enerji Azərbaycanın tranzit imkanları ilə Avropaya daşına bilər və ölkəmizə uzunmüddətli strateji rol qazandırar.

Azərbaycanın coğrafi mövqeyi, etibarlı tranzit infrastrukturu və enerji sahəsində dayanıqlı siyasi kursu onu regionun əsas enerji qovşağına çevirir. Layihə ölkədə yaşıl enerji istehsalının genişlənməsinə, günəş panelləri, turbinlər və digər texnologiyaların lokal istehsalına şərait yarada bilər.

Transxəzər Yaşıl Enerji Dəhlizi yekunda Mərkəzi Asiya ilə Avropa arasında yeni enerji marşrutu yaradaraq regionu qlobal yaşıl keçidin aparıcı mərkəzinə çevirəcək.

# Əczaçılıq zavodu açılıb

## Prezident müəssisənin açılışında iştirak edib

Prezident İlham Əliyev Abşeron rayonunun Hökməli qəsəbəsində "Scandens Pharmaceutical Industries Ltd" MMC-nin dərman preparatları istehsalı müəssisəsinin açılışında iştirak edib. Yeni əczaçılıq müəssisəsi beynəlxalq standartlara uyğun qurulub və Almaniya, İsveçrə, İtaliya texnologiyaları ilə təchiz edilib. Burada ildə 800 milyonadək tablet və kapsul istehsalı planlaşdırılır, məhsullar həm yerli bazara, həm də ixraca yönəldiləcək. 74 milyon manat investisiya ilə yaradılan müəssisə 120 iş yerini təmin edir. Zavod dərman istehsalının bütün mərhələlərini əhatə etməklə yanaşı, əczaçılıq sahəsində təlim və təcrübə proqramları üçün də baza rolunu oynayacaq.

Müəssisənin enerji tələbatının 40 faizi günəş panelləri ilə ödənir.

# Kəlbəcərin azadlığının ildönümü

## Ölkə başçısı bununla bağlı sosial şəbəkədə paylaşım edib

Prezident İlham Əliyev Kəlbəcərin işğaldan azad edilməsinin 5-ci ildönümü münasibətilə sosial şəbəkə hesablarında paylaşım edib. Dövlətimizin rəhbəri paylaşımında "Zəfər Tariximiz: 25 Noyabr 2020-ci il Kəlbəcər" sözlərini qeyd edib.

Qeyd edək ki, Kəlbəcərin döyüşsüz şəkildə azad edilməsi tarixi Zəfərimizin mühüm mərhələlərindən biri kimi qiymətləndirilir.

# Zəfərin və quruculuğun memarı

## Qarabağ Prezidentin şəxsi nəzarəti ilə dirçəlir

İşğaldan azad olunmuş ərazilərin yenidən qurulması Prezident İlham Əliyevin tapşırığı və şəxsi nəzarəti ilə gerçəkləşir. Dövlətimizin başçısı işğaldan azad olunmuş ərazilərdə indiyədək 569 tədbirdə iştirak edib, ümumilikdə 177 müxtəlif təyinatlı layihənin təməlini qoyub,167 obyektin və infrastruktur layihəsinin açılışını edib.

Onu da qeyd edək ki, bərpa və yenidən qurma işlərinə cari ilin əvvəlinə 17,6 milyard manat sərf edilib, 2025-ci ilin sonuna qədər isə bu məbləğin 22 milyard manata çatması gözlənilir. 2026-cı ildə isə bu xərclər büdcənin təxminən 8,4 faizini təşkil edəcək.

# Fərman və sərəncamlar

*Prezident İlham Əliyev noyabrın 25-də "Ərzaq təminatı xəritəsi" informasiya sisteminin yaradılması və bununla əlaqədar bir sıra məsələlərin tənzimlənməsi haqqında Fərman imzalayıb.*

*Prezident İlham Əliyev noyabrın 20-də Azərbaycan Respublikası vətəndaşlarının 2026-cı il yanvarın 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılması və müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının ehtiyata buraxılması haqqında Sərəncam imzalayıb.*

*Prezident İlham Əliyev tanınmış şair Vahid Əziz haqqında sərəncam imzalayıb. Sərəncama əsasən, Azərbaycan ədəbiyyatının inkişafında uzunmüddətli və səmərəli fəaliyyətinə görə Vahid Əziz oğlu Cəfərov "Şərəf" ordeni ilə təltif edilib.*


Aktual problemlər müzakirə olunub......2
Maarifləndirmə - xilasa aparan yol........2
Adları Vətənlə qoşa çəkilir....................3
Müasir çağırışlar nəzərə alınır.............3

## Daxili işlər naziri vətəndaş qəbulu keçirəcək

### Vətəndaşlar polisin səlahiyyətlərinə aid məsələlərlə bağlı müraciət edə bilərlər

Daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov 2025-ci il dekabrın 1-də Gəncə şəhərində növbəti vətəndaş qəbulu və polis orqanları, o cümlədən Daxili Qoşunlarda xidmət etmək arzusunda olan gənclərin sıra baxışını keçirəcək.

Gəncə Şəhər Baş Polis İdarəsinin inzibati binasında baş tutacaq qəbulda Gəncə, Goranboy, Daşkəsən, Naftalan, Göygöl, Samux, Kəlbəcər, Xocalı şəhər və rayonlarının sakinləri iştirak edə bilərlər.

Qəbula yazılmaq istəyən vətəndaşlar Nazirliyin səlahiyyətlərinə aid məsələlərlə bağlı 30.11.2025-ci il tarixinədək yaşadıqları ərazinin polis orqanına, habelə DİN-in mia.gov.az internet saytı vasitəsilə və sosial şəbəkələrdəki səhifələrinə müraciət edə bilərlər.

Polis orqanları və Daxili Qoşunlarda xidmət etmək arzusunda olan namizədlərin sıra baxışı isə vətəndaş qəbulundan öncə, yeni dekabrın 1-də 08:00-da Gəncə Olimpiya İdman Kompleksində keçiriləcək.

Qeyd edək ki, qəbula və sıra baxışına gələnlərdən şəxsiyyət vəsiqəsi tələb olunur.

# Aktual problemlər müzakirə olunub

### Polis Akademiyası daha bir beynəlxalq elmi-praktiki konfransa evsahibliyi edib

**Noyabrın 26-da Daxili İşlər Nazirliyinin Polis Akademiyasının təşkilatçılığı ilə “Cinayətkarlığa qarşı mübarizənin aktual problemləri” mövzusunda beynəlxalq elmi-praktik konfrans keçirilib.**

Tədbirdə Türkiyə, Macarıstan, Polşa, Moldova, Gürcüstan, Bolqarıstan, Serbiya, Özbəkistan, Tacikistan, Türkmənistan, Qazaxıstan və Qırğız Respublikalarının nümayəndələri iştirak ediblər. Bununla yanaşı, Milli Məclis və DİN-in müxtəlif qurumlarının məsul şəxsləri, həmçinin Bakı Dövlət Universiteti, Polis Akademiyası və Milli Aviasiya Akademiyasının əməkdaşları, magistr və doktorantları da tədbirə qatılıblar.

Konfransı giriş sözü ilə Azərbaycan Respublikasının daxili işlər nazirinin müavini polis general-leytenantı İsmət Əliyev açıb.

O, tədbir iştirakçılarını salamlayıb, konfransın işinə uğurlar arzulayıb və əsas məqsədin cinayətkarlığa qarşı mübarizədə innovativ yanaşmaların müzakirəsi, effektiv hüquqi mexanizmlərin təhlili və qlobal təcrübənin paylaşılması olduğunu vurğulayıb.

Tədbir panel çıxışlarla davam edib.

İştirakçıların təqdimatlarında cinayətkarlığa qarşı mübarizənin cinayət-hüquqi və kriminoloji aspektləri, müasir cinayət formaları və inkişaf tendensiyaları geniş şəkildə müzakirə olunub. Həmçinin cinayətlərin yeni növləri, onlara






qarşı mübarizənin nəzəri və praktiki problemləri, hüquq-mühafizə orqanlarının fəaliyyətinin təkmilləşdirilməsi perspektivləri, istintaq və məhkəmə təcrübəsi barədə fikirlər səsləndirilib.

Konfrans çərçivəsində normativ-hüquqi bazanın təkmilləşdirilməsi, hüquq sisteminin müasir çağırışlara uyğunlaşdırılması, kibertəhlükəsizlik və rəqəmsal sübutlarla bağlı yeni normativ tənzimləmələrin hazırlanması prioritet istiqamətlər kimi önə çıxıb.

Bundan başqa, hüquq-mühafizə orqanları arasında əməkdaşlığın gücləndirilməsi, operativ məlumat mübadiləsinin daha da sürətləndirilməsi, birgə təlim və hazırlıq proqramlarının təşkili, mərkəzləşdirilmiş məlumat bazalarının genişləndirilməsi və elmi-analitik fəaliyyətin gücləndirilməsi üzrə fikir mübadiləsi aparılıb.

Cinayətkarlığın statistik və kriminoloji təhlilinə dair yeni elmi layihələrin hazırlanması da prioritet istiqamətlərdən biri kimi qeyd olunub.

Tədbirdə iştirak edən qonaqlar beynəlxalq konfransın təşkilini yüksək qiymətləndirib və əməkdaşlıqdan məmnunluqlarını ifadə ediblər.

Konfrans işgüzar və səmərəli mühitdə başa çatıb.

## Respublika Xəbərləri

### Zabitlərin xidmət müddəti azaldılır

Milli Məclis zabitlərin dinc dövrdə xidmət müddətinin 1 ilə endirilməsi barədə dəyişikliyi ilk oxunuşda təsdiqləyib. Layihəyə əsasən, müddətli xidmət zamanı zabit hazırlığı kursunu bitirənlərə leytenant rütbəsi veriləcək. Müzakirələrdən sonra sənəd səsverməyə çıxarılaraq birinci oxunuşda qəbul edilib.

### Qeyri-etik paylaşım edənlər cəzalanacaq

İnzibati Xətalar Məcəlləsinə təklif edilən dəyişikliyə əsasən sosial şəbəkədə əxlaqa zidd jest və ifadələrə görə 500–1000 manat cərimə, zəruri hallarda 30 günədək həbs tətbiq olunacaq. Təkrar hallarda cərimə 2000 manatadək artırılacaq. Qeyd edilən tələblər cinayət məsuliyyəti olmadığı halda tətbiq ediləcək.

### Bakıda həmrəylik forumu keçirilib

Bakıda Türk Dövlətləri Təşkilatına üzv ölkələrin QHT-ləri ilk dəfə bir araya gəlib. 500-dən çox iştirakçının qatıldığı forumda Zəngəzur dəhlizinin regional əməkdaşlığa təsiri və türk dünyasında vətəndaş cəmiyyəti institutlarının rolu müzakirə olunub. İki panel əsasında fikir mübadiləsi aparılıb və gələcək əməkdaşlıq istiqamətləri müəyyənləşdirilib.

### Qarabağın inkişafı prioritetdir

Aparılan bərpa və tikinti işləri nəticəsində Xankəndi, Ağdərə və Xocalıda 23 mindən çox sakin yaşayır. Verilən məlumata görə, bölgədə yeni yol, enerji və sosial layihələr davam etdirilir. Qarabağ Universitetində isə 2000-dən artıq tələbə təhsil alır və gənclərin sosial fəallığı artırılır.

### Köçən ailələr öz işlərini qururlar

Ağdam, Ağdərə, Füzuli və Kəlbəcərdə özünüməşğulluq proqramı çərçivəsində yeni ailə biznesləri yaradılıb. Sakinlərə dərzi sexi, gözəllik salonu, poliqrafiya və santexnik xidmətləri üçün aktivlər təqdim olunub. Verilən dəstək sayəsində onlar kiçik istehsal və xidmət sahələrində fəaliyyətə başlayıblar.

### Növbəti köç karvanları yola salınıb

Böyük Qayıdış çərçivəsində Xocalının Xanyurdu və Təzəbinə kəndlərinə yeni köç karvanı yola salınıb. Bu mərhələdə 27 ailə – toplam 104 nəfər öz yurduna qayıdıb. Eyni zamanda, Zəngilanın Məmmədbəyli kəndinə çatan köç karvanı da sakinlərin məskunlaşması ilə tamamlanıb və 30 ailə – 144 nəfərə mənzil açarları təqdim edilib.

# Maarifləndirmə - xilasa aparan yol

### Polisin dəstəyi birgə mübarizəni daha qətiyyətli edir

Noyabrın 24-də DİN İnsan Alverinə qarşı Mübarizə Baş İdarəsi yanında İnsan Alverinə qarşı Mübarizə üzrə QHT Koalisiyasının texniki və Lənkəran-Astara Regional Gənclər





və İdman İdarəsinin təşkilati dəstəyi, o cümlədən Ombudsman Aparatının Cənub Regional Mərkəzinin iştirakı ilə koalisiyanın üzvü “Maarifpərvərlik” Azərbaycan Gənclərinin İctimai Yardım Assosiasiyası ictimai birliyi tərəfindən Lənkəranda idarənin və Lənkəran Dövlət Universitetinin tələbələri üçün “İnsan alverinin potensial qurbanlarının maarifləndirilməsi” mövzusunda təlim kursu keçirilib.

Təlimçi-ekspert Afiq Məlikov iştirakçılara insan alveri, insan qaçaqmalçılığı, insan alverinin ümumi formaları, insan alverinin başvermə səbəbləri, insan alverinə cəlbetmə yolları, insan alveri üzrə risk qrupları, insan alveri qurbanlarının ehtiyacları, insan alveri qurbanları ilə yarana biləcək tibbi, psixoloji və sosial (davranışdakı) fəsadlar barədə geniş məlumat verərək, insan alverinə dair mövcud statistikanı onların diqqətinə çatdırıb.

İnsan alverinin qurbanına çevrilməmək üçün maarifləndirmənin önəminə toxunan ekspertlər Daxili İşlər Nazirliyinin İnsan Alverinə qarşı Mübarizə Baş İdarəsi yanında İnsan Alverinə qarşı Mübarizə üzrə QHT Koalisiyası və onun fəaliyyətini xüsusi olaraq vurğulayıb və “152-Qaynar xətt”inin mübarizədə əlçatanlığını qeyd edib.

Sonra Ombudsman Aparatının Cənub Regional Mərkəzinin rəhbəri Ziya İsmayılov insan alverinə qarşı mübarizə üzrə milli qanunvericilik və beynəlxalq konvensiyalarla bağlı çıxış edib.

Sonda tədbir iştirakçılarını maraqlandıran suallar cavablandırılıb və mövzu ilə bağlı müxtəlif videoçarxlar nümayiş etdirilib.

*"Polis"*

# Cəmiyyət həmrəy olmalıdır

### İctimai dəstək vacib amillərdəndir

Müasir cəmiyyətdə yeniyetmələri kriminal aləmə sürükləyə biləcək təhlükələr kifayət qədər çoxdur və ən narahatedici məqam odur ki, bu risklər sürətlə artır. İnternet əvvəlki lokal təsirləri qlobal miqyasda genişləndirib. Narkotik təbliğatı, kiber zorakılıq, kriminal “subkultur” və digər zərərli məzmun sərhəd tanımadan həyatımıza daxil olur. Təbii ki, bunun ilk hədəfi yeniyetmələrdir.

Əlbəttə, internetin mənfi təsirləri onun böyük imkanlarını kölgəyə salmır. Eyni alətin özündən istifadə edərək maarifləndirici işin gücləndirilməsi, yeni çağın təhdidlərinə qarşı elə yeni çağın imkanları ilə “zərdab” yaradılması mümkündür. Polisin sosial platformalar üzərindən keçirdiyi profilaktik tədbirlər də gənclərə daha sürətli və operativ şəkildə təsir etməyə xidmət edir. Profilaktik tədbirlərin nəticələri göstərir ki, ölkə üzrə yeniyetmələr tərəfindən törədilən cinayətlərin payı ümumi cinayətlərin cəmi bir faizini təşkil edir.

Bununla belə, yeniyetmələrin kriminal hadisələrdə minimal iştirakı narahatlığı azaltmır. Məktəblilər arasında xoşagəlməz hadisələrin, xüsusən də bıçaqlanma hallarının baş verməsi profilaktik tədbirlərin əhəmiyyətini daha da artırır. Yetkinlik yaşına çatmayanlarla çalışan polis əməkdaşlarının fəaliyyəti məhz bu məqamlarda daha qabarıq şəkildə görünür.

Bu əməkdaşlarla söhbətlərimizdən belə nəticə çıxır ki, yeniyetmələrin kriminal davranışlardan çəkindirilməsində polis maarifləndirməyə xüsusi üstünlük verir. Polis əməkdaşları məktəblərdə sinif-sinif dolaşaraq, hətta hiperaktiv və mütəmadi intizamsızlıq yaradan uşaqlarla fərdi söhbətlər aparır, onları zərərli təsirlərdən qorumağa çalışırlar.

Şagirdlər arasında bıçaqlı insidentlərlə bağlı ekspertlər də qeyd edirlər ki, əsas səbəblərdən biri valideyn nəzarətinin zəifliyidir. Xüsusilə oğlan uşaqlarına həddindən artıq sərbəstliyin verilməsi, yanlış davranışlara göz yumulması xoşagəlməz hadisələr üçün münbit şərait yaradır. Sosial medianın mənfi təsirləri bu tendensiyanı daha da gücləndirir.

Mövcud vəziyyət fonunda polis yeniyetmələri hüquqpozma və cinayət tərkibli hərəkətlərdən uzaq tutmaq üçün profilaktik fəaliyyəti genişləndirib. Məktəblərdə keçirilən görüşlərdə kriminal davranışa aparan yolların qarşısını almaq, şagirdlərin diqqətini elmə və təhsilə yönəltmək məqsədi daşıyan çıxışlar edilir. Paralel olaraq, məktəblərdə monitorinqlər zamanı elektron qəlyan, təsbeh və telefon kimi qadağan olunmuş əşyalar aşar edilərək qanuna uyğun tədbirlər görülür. Yuxarı siniflərə narkotik maddələrin təhlükələri, kəsici-deşici alətlərin gətirdiyi fəsadlar barədə məlumatlar verilir və bu istiqamətdə iş bu gün də davam etdirilir.

Ancaq onu da qeyd etməliyik ki, polis və məktəb gənclərin düzgün istiqamətləndirilməsində mühüm rol oynasa da, onların fəaliyyəti sadəcə dəstək xarakteri daşıyır. Övladın sağlam düşüncəli və məsuliyyətli vətəndaş kimi formalaşması ilk növbədə ailənin üzərinə düşən borcdur. Cəmiyyətin gələcəyi üçün ən əsas yük valideynin üzərində qalır və bu məsuliyyəti heç bir qurum əvəz edə bilməz.

*"Polis"*

# Adları Vətənlə qoşa çəkilir

## Şəhidlik onların alın yazısı idi...

**Biz Vətənimiz haqqında bütün həqiqətləri bildiyimiz üçün onun uğrunda döyüşdük və qalib olduq. Yəni bizim olanın varlığına şübhə edənləri fakt qarşısında qoymağı bacardıq. İki əsrlik yalana dünyanı inandırmaq istəyən, hətta buna nail olan düşmənlərimiz min illər öncə olduğu kimi XXI əsrdə də dünya düzənini dəyişdirən bir millətin qarşısında diz çökdülər.**

Düşməni yerinə oturdan, ona tarixi bir dərs verən, torpaqlarımızı azadlığına qovuşduranların sırasında döyüşən oğullardan biri də Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının hərbi qulluqçusu kiçik çavuş Mikayılzadə Mikayıl Vidadi oğlu idi.

Mikayıl 1992-ci il yanvarın 4-də Beyləqan rayonunun Şərq qəsəbəsində doğulub. O şəhid Qurban Namazəliyev adına tam orta məktəbi bitirib.

İdmanın sambo, ağırlıqqaldırma və digər növləri ilə fəal məşğul olub, qayğılar içində olsa da sağlam canla, sağlam ruhla böyüyüb.

2010-cu ilin yanvar ayında Dövlət Sərhəd Xidmətinin sıralarına müddətli həqiqi hərbi xidmətə çağırılıb. Şəki rayonunda yerləşən "N" saylı hərbi hissədə sərhədçi olaraq xidmət keçib. Sərhədimizin keşiyində ayıq-sayıq dayanıb. Kiçik komandirlər kursunu bitirib. Xidmətə başlayan gənc əsgərlərin təliminə də cəlb edilib. 2011-ci ilin iyul ayında o, hərbi xidmətdən ehtiyata buraxılıb.

Bir müddət poçt xidmətində işləyib, hətta bu sahədə məsul vəzifəyə də irəli çəkilib. Lakin hərbiçi peşəsinə olan marağı onu sıralarımıza gətirib.

2015-ci ilin avqust ayında Mikayılın DİN-in Daxili Qoşunlarının sıralarına müddətdən artıq həqiqi hərbi xidmətə qəbul olunmaq üçün komandanlığa müraciəti müsbət cavablandırılıb. Həmin ayın 15-dən etibarən Daxili Qoşunlarda hərbi xidmətə başlayıb. "N" saylı hərbi hissədə öncə



*Mikayıl Mikayılzadə*

xüsusi vasitələrin tətbiqi dəstəsinin götürmə qrupunun atıcısı, sonra müvafiq imtahanlardan uğurla keçərək xüsusi təyinatlı dəstənin atəş təminatı qrupunun dəzgahlı qumbaraatan yarımqrupunun heyət nəfəri vəzifələrinə təyin edilib.

2018-ci il iyunun 26-da Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 100 illiyi münasibətilə Azadlıq meydanında keçirilmiş hərbi paradda Mikayıl da iştirak edərək o gün şərəfli anlar yaşayıb.

Hərbi qulluqçu "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)" yubiley medalı ilə təltif olunub.

2020-ci il fevralın 2-də ailə qurub.

Vətən müharibəsi iştirakçısı baş çavuş Seymur Musalı: "Mikayılı 2019-cu ildən tanıyıram.



Vətən müharibəsi başlayanda "N" saylı hərbi hissəyə göndərildik. Orada ehtiyat qüvvə qismində qaldıq. Bir müddət sonra ön cəbhəyə yola düşdük. Müdafiə Nazirliyinin tabeliyindəki Xüsusi Təyinatlı Qüvvələrin şəxsi heyəti ilə birlikdə müxtəlif döyüş tapşırıqlarının icra etdik.

Füzuli, Xocavənd, Xocalı rayonlarının və Şuşa şəhərinin azad edilməsi uğrunda döyüşdük. Azad edilmiş ərazilərdə axtarış zamanı gizlənmiş erməni hərbçilərini ələ keçirib, düşmənə məxsus silah-sursatı aşkarlamışıq".

Qeyd edək ki, Mikayıl ön cəbhədə ruh yüksəkliyi ilə vuruşub, torpaqlarımızın düşmən tapdağından qurtulmasına və müdafiəsinə layiqli töhfəsini verib.

Hərbi qulluqçumuz silahdaşları ilə birlikdə Laçın-Şuşa yolunun üzərindəki, İsa bulağına bir neçə kilometr məsafədə yerləşən mühüm yüksəkliyi nəzarətə götürərək orada mövqeləniblər.

Onlara Ermənistandan buraya daşınan canlı qüvvə və hərbi yüklərin qarşısını almaq tapşırığı verilib. Yolu kəsilən düşmənin yüksəkliyi geri almaq cəhdləri dəf edilib.

Noyabrın 6-dan 7-nə keçən gecə həmin yüksəklik düşmən tərəfindən artilleriya vasitələri və tanklardan şiddətli atəşə tutulub. Atəş nəticəsində mərmi qəlpələrindən ağır yaralanan Mikayıl və bir neçə nəfər silahdaşı şəhadətə ucalıb.

İgid hərbi qulluqçumuz 2020-ci il noyabrın 10-da Beyləqan rayonunda Şəhidlər xiyabanında torpağa tapşırılıb.

Azərbaycan Respublikası Prezidentinin 15, 29 dekabr 2020-ci il tarixli müvafiq sərəncamları, həmçinin müdafiə nazirinin 28 dekabr 2020-ci il tarixli əmri ilə kiçik çavuş M.Mikayılzadə ölümündən sonra "Vətən uğrunda", "Şuşanın azad olunmasına görə" və III dərəcəli "Hərbi xidmətdə fərqlənməyə görə" medalları ilə təltif edilib.

*Yalçın Abbasov*

# Arzularının ünvanına gəlmişdilər

## Kursant adı qazanmağın yeganə yolu yüksək bilik nümayiş etdirməkdir

Polis Akademiyasında keçirilmiş "Açıq qapı" tədbirində iştirak edən şagird qonaqların sayı günbəgün artır. Elə bu günlərdə Şirvan şəhər məktəblilərinin və Binəqədi rayonunda yerləşən 314 nömrəli tam orta məktəbin şagirdlərinin üzünə Polis Akademiyasının qapıları taybatay açılıb.





Məktəblilər tədris korpusları, konfrans zalı, kriminalistik təlim şəhərciyi, elektron kitabxana, "İnformasiya təhlükəsizliyi" fakültəsinin ən müasir texniki avadanlıqlarla təchiz olunmuş elmi-tədqiqat laboratoriyası, təlim mərkəzi, auditoriyalar, qapalı atıcılıq tiri, yataqxana, "Krosfit" və idman meydançası, kursant yeməkxanası və yataqxana ilə tanış olublar.

Şagirdlərə Akademiyada yaradılmış təhsil mühiti, qəbul qaydaları, kursantların maddi, sosial təminatları və akademiyada təhsilin üstünlükləri barədə geniş məlumatlar verilib, onları maraqlandıran suallar cavablandırılıb.

# Qaydalara əməl edək!

## Piyadaların təhlükəsizliyi üçün ən etibarlı qarant odur

Piyadavurma hadisələrinin sayının azaldılması sürücülərlə yanaşı, həm də piyadalar arasında fərdi məsuliyyət hissinin formalaşdırılmasından asılıdır.

Piyadaların bu istiqamətdə maarifləndirilməsi məqsədilə, Baş Dövlət Yol Polisi İdarəsi tərəfindən davamlı tədbirlər həyata keçirilir.

Növbəti belə tədbir paytaxtın Yasamal rayonunda yerləşən təhsil müəssisəsinin və metro stansiyasının qarşısında təşkil olunub.

Polis əməkdaşları həmsöhbət olduqları piyadalara yol hərəkəti qaydalarını bir daha xatırladıb, yolu nəzərdə tutulmayan yerlərdən keçməyin, qəflətən yolun hərəkət hissəsinə çıxmağın təhlükəli davranışlar olduğunu izah edib, zəruri tövsiyələr veriblər.

# Müasir çağırışlar nəzərə alınır

## Təcrübəli mütəxəssislər dərslərdə iştirak edirlər

Polis Akademiyasında nəzəriyyə ilə təcrübənin vəhdətini möhkəmləndirmək üçün təcrübəli mütəxəssislərin iştirakı ilə mühazirə dərsləri keçirilir.

Müxtəlif fənlər üzrə keçirilən interaktiv dərslərdə iştirak edən qonaqlar "İnzibati iddia növləri və müvəqqəti xarakterli müdafiə tədbirləri", "Məhkəmələrin hökm və ya qərarlarına apellyasiya qaydasında yenidən baxılması", "Beynəlxalq cinayət hüququ", "İbtidai istintaqı məcburi olan cinayət işləri üzrə təhqiqatın aparılması", "Cinayət çoxluğu" və "Şəxsi qeyri-əmlak hüquqları və onların müdafiəsi" mövzuları üzrə mühazirə oxuyublar.



Mövzulara əsasən qonaqlar tərəfindən kursantlara inzibati iddia növləri və müvəqqəti xarakterli müdafiə tədbirləri, cinayət mühakimə icraatı sahəsində apellyasiya icraatının əhəmiyyə-



ti, bu icraat zamanı cinayət-prosessual qanunvericiliyin tətbiqi praktikası və prosessual normaların tətbiqi, beynəlxalq cinayət hüququnun anlayışı, inkişaf tarixi, xüsusiyyətləri, növləri, ibtidai istintaqı məcburi cinayət işləri üzrə aparılan təhqiqatın əhəmiyyəti, törədilmiş cinayətlərin vaxtında açılması, onların izlərinin müəyyən edilərək rəsmiləşdirilməsi, şəxsi qeyri-əmlak hüquqları və onların müdafiəsi barədə geniş məlumatlar verilib.

Mütəxəssislərin iştirakı ilə keçirilən mühazirə dərsləri kursantlar tərəfindən böyük maraqla qarşılanıb. Onları maraqlandıran suallar qonaqlar tərəfindən cavablandırılıb və mövzular ətrafında müzakirələr aparılıb.

# Prokurorlar üçün təlim

## Qurumlararası inteqrasiya artıq ənənəyə çevrilib

Bu günlərdə Daxili İşlər Nazirliyinin Polis Akademiyasında Azərbaycan Respublikası Hərbi Prokurorluğunun Kriminalistika şöbəsinin prokurorları



üçün nəzəri və praktiki hazırlığın gücləndirilməsinə yönəlmiş təlim təşkil olunub.

DİN-in Polis Akademiyasının Kriminalistika kafedrasının əməkdaşları tərəfindən keçirilən praktiki məşğələlər zamanı iştirakçılara hadisə yerinin və aşkar edilmiş maddi sübutların fotoqrafiya ilə sənədləşdirilməsi, fotocədvəllərin hazırlanması, müxtəlif predmetlər üzərində əl-barmaq izlərinin aşkar edilməsi və götürülməsi, həmçinin canlı şəxslərdən və meyitlərdən barmaq izlərinin əldə olunması qaydaları izah edilib. Bununla yanaşı, ayaq izləri, müxtəlif predmetlər üzərində trasoloji və bioloji izlərin götürülməsi, odlu silahların kriminalistik tədqiqi, güllə, giliz və digər silah tətbiqi izlərinin aşkar edilməsi və qablaşdırılması üzrə praktiki vərdişlər aşılanıb.

İştirakçılara partlayıcı qurğular və partlayış izləri ilə davranış qaydaları da ətraflı təqdim olunub.



Yekunda prokurorlar əldə etdikləri bilik və bacarıqları simulyasiya şəraitində tətbiq edərək qəsdən adamöldürmə, quldurluq, oğurluq və narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə bağlı cinayət hadisələri üzrə hadisə yerinə baxış keçirib, müxtəlif növ izləri aşkar edərək götürüblər.

# Yaşatmaq üçün bir addım öndə

## Polisin nəcib təşəbbüsü həm də vətəndaşlıq borcudur

Ölkəmizdə talassemiya və hemofiliya xəstəliyindən əziyyət çəkənlərə yardım məqsədilə keçirilən qanvermə aksiyalarında polis hər zaman həmrəylik nümayiş etdirib.

Respublika Qan Bankının Şirvan Bölməsində talassemiyalı və hemofiliyalı xəstələrə dəstək olmaq üçün növbəti qanvermə aksiyası keçirilib.

"Talassemiyasız həyat naminə" devizi ilə gerçəkləşən humanitar aksiya çərçivəsində Şirvan Şəhər Polis Şöbəsinin şəxsi heyəti də könüllü olaraq qanvermə prosesinə qoşulublar.

Əvvəlcə xüsusi tibb briqadasının həkim-hemotoloqları tərəfindən hər bir donorun qan qrupu müəyyən olunub, onların səhhətində hər hansı bir problemin olub-olmaması yoxlanıldıqdan sonra qanvermə aksiyasına start verilib.

Tibbi heyətin nəzarəti ilə qan verən polis əməkdaşları humanizm və sosial məsuliyyət nümunəsi nümayiş etdiriblər.



Aksiyanın məqsədi ehtiyac duyulan xəstələrə yardım göstərmək və cəmiyyətdə könüllü donorluq ənənəsini gücləndirməkdir.

Təşkilatçılar onların təşəbbüsünü yüksək qiymətləndirən, dövlət qurumlarının bu kimi aksiyalara fəal dəstəyinin cəmiyyət üçün motivasiyaedici rol oynadığını bildiriblər.

Qeyd edək ki, yığılmış qan Mərkəzi Qan Bankına təhvil veriləcək və talassemiya xəstəliyindən əziyyət çəkən insanların müalicəsində istifadə olunacaq.

# Qəhrəmanlıq da yaşayır, qəhrəmanlar da...

## Vətən müharibəsinin xronologiyasından

*(Əvvəli ötən sayımızda)*

Qələbəmizdən, torpaqlarımızın işğaldan azad olunmasından, daha doğrusu 2020-ci ilin sentyabrından beş il ötsə də yaddaşımızda, ruhumuzda özünə əbədi yer eləyən o hiss hələ də bizi tərk etməyib. O hissə qisas adı da verə bilərik, yurda dönüş istəyi də, bir qərinəyə yaxın illərin qələbə ilə sonlanmış məntiqi sonluğu da demək olar.

Bu gün işğaldan azad olunmuş yurdlara əbədi bir köç başlayıb. Bu köç təhlükəsiz, top-tüfəng səsi gəlməyən, Azərbaycan əsgərinin, Azərbaycan Polisinin gecə-gündüz keşik çəkdiyi torpaqlarda gələcək xoş günlərin, uğurların təməlini qoymaq üçün 30 ildən sonra yola çıxıb. Bu köçlərin, bu qayıdışın bir qarantı var: Azərbaycan dövləti, Azərbaycan xalqı və Dəmir yumruq. Vətən müharibəsində Qələbəmizə aparan hər günün, hər ayın öz yeri var.

**Noyabrın 2-də** Prezident İlham Əliyev özünün "Twitter" səhifəsində Zəngilan rayonunun Dərə Gilətağ, Böyük Gilətağ kəndləri, Cəbrayıl rayonunun Çapand, Hacı İsaqlı, Qoşabulaq kəndləri, Qubadlı rayonunun İşıqlı, Muradxanlı, Milanlı kəndlərinin işğaldan tam azad edildiyini açıqlamışdır. Azərbaycan Müdafiə Nazirliyinin məlumatına görə cəbhənin müxtəlif istiqamətlərində Ermənistan Ordusuna məxsus 4 ədəd BM-21 Qrad qurğusu və Tərtərin Çardaqlı kəndi istiqamətində isə 1 ədəd "KUB" zenit-raket kompleksi məhv edilmişdir. Elə həmin gün Qondarma Dağlıq Qarabağ Respublikasının Müdafiə Nazirinin və Ordusu Komandanlığının müavini Artur Sarkisyanın ölməsi ilə bağlı məlumat yayılır.

**Noyabrın 3-də** Azərbaycan Müdafiə Nazirliyinin məlumatına görə Xankəndi yaxınlığında düşmənin iki sursat anbarı, Zəngilan istiqamətində isə kəşfiyyat-diversiya qrupu məhv edilib.



**Noyabrın 4-də** Prezident İlham Əliyev özünün "Twitter" səhifəsində Zəngilan rayonunun Məşədiismayıllı, Şəfibəyli kəndləri, Cəbrayıl rayonunun Mirək, Kavdar kəndləri, Qubadlı rayonunun Başarat, Qarakişilər, Qaracallı kəndlərinin işğaldan tam azad edildiyini açıqlamışdır.

**Noyabrın 7-də** Azərbaycan Silahlı Qüvvələrinin keçirdiyi əməliyyatlar nəticəsində Füzuli rayonunun Yuxarı Veysəlli, Yuxarı Seyidəhmədli, Qacar, Divanlılar, Qorqan, Üçüncü Mahmudlu, Cəbrayıl rayonunun Yuxarı Məzrə, Yanarhac, Xocavənd rayonunu Ataqut, Tsakuri, Xocalı rayonunun Moşxmaat, Qarabulaq, Qubadlı rayonunun Qəzyan, Balasoltanlı, Mərdanlı, Zəngilan rayonunun Beşdəli kəndi işğaldan azad edilib. Bunu Prezident İlham Əliyev öz "Twitter" səhifəsində paylaşıb.

**Noyabrın 8-də** Azərbaycan Silahlı Qüvvələrinin keçirdiyi uğurlu əməliyyatlar nəticəsində Şuşa şəhəri işğaldan azad olunub. Bunu Prezident İlham Əliyev xalqa müraciətində paylaşıb.

**Noyabrın 9-da** Prezident İlham Əliyev özünün "Twitter" səhifəsində Füzuli rayonunun Qobu Dilağarda, Yal Pirəhmədli, Yuxarı Yağlıvənd, Dilağarda, Seyid Mahmudlu, Ələsgərli, Xocalı rayonunun Dəmirçilər, Çanaqçı, Mədətkənd, Sığnaq, Xocavənd rayonunun Susanlıq, Domi, Tuğ, Akaku, Azıx, Cəbrayıl rayonunun Hüseynalılar, Söyüdlü, Aşağı Sirik, Qubadlı rayonunun Yuxarı Mollu, Aşağı Mollu, Xocik, Zəngilan rayonunun Keçikli, Ördəkli kəndlərinin işğaldan tam azad edildiyini açıqlamışdır. Prezident İlham Əliyev özünün "Twitter" səhifəsində Xocavənd rayonunun Böyük Tağlar, Salakətin, Zoğalbulaq, Arakül, Tağaverd, Böyük Tağaverd, Zərdanaşen, Şexer, Xocalı rayonunun Şuşakənd, Muxtar, Daşaltı, Füzuli rayonunun Aşağı Güzdək, Govşatlı, Mirzəcamallı, Şəkərcik, Merdinli, Şıxlı, Qaraməmmədli, Dövlətyarlı, Hacılı, Hüseynbəyli, Saracıq, Zəngilan rayonunun Sobu, Qaragöz, İsgəndərbəyli kəndlərini, Bartaz qəsəbəsini, Bartaz strateji yüksəkliyini (2300 metr), Sığırt yüksəkliyini (1370 metr), Şükürataz yüksəkliyini (2000 metr) və əlavə 5 adsız strateji yüksəkliyi, Cəbrayıl rayonunun Qalacıq, Mollahəsənli, Əsgərxanlı, Yuxarı Nüsüs, Aşıq Məlikli, Niftalılar, Qərər, Çələbilər, Qubadlı rayonunun Qaraimanlı, Xəndək, Həmzəli, Mahrızlı, Hal, Ballıqaya, Ulaşlı, Tinli, Xocahan, Boyunəkər, Qaraqoyunlu, Çərəli, Laçın rayonunun Güləbird, Səfiyan, Türklər kəndlərinin işğaldan tam azad edildiyini açıqlamışdır.

**Noyabrın 10-da** 2020-ci ildə üç ölkənin dövlət başçıları tərəfindən bəyanat imzalanır. Bəyanatda 10 noyabr 2020-ci ildə Moskva vaxtı ilə 00:00-dan etibarən tam bir atəşkəs və Dağlıq Qarabağ münaqişəsi bölgəsindəki bütün hərbi əməliyyatların dayandırılması elan edilir. Bu bəyanatın müddəalarına əsasən Azərbaycan Silahlı Qüvvələri bölgədə tam qalib elan edilir.

Dağlıq Qarabağ münaqişəsi zonasında tam atəşkəsdən və bütün hərbi əməliyyatlar dayandırıldıqdan sonra 10 noyabr 2020-ci ildə Moskva vaxtı ilə 00:00-dan etibarən Azərbaycan və Ermənistan öz mövqelərində dayanırlar.

Ağdam rayonu və Ermənistan tərəfinin Azərbaycanın Qazax rayonu istiqamətdə saxladığı ərazilər 20 noyabr 2020-ci il tarixinədək Azərbaycana qaytarılır.

# Unudulan cinayət: Luiza Dann işi

## Qatilin özü kimi psixoloji portreti də maraq doğurdu

İngiltərənin cənubunda yerləşən kiçik qəsəbə sakinləri 1967-ci ilin yayında törədilən cinayətdən çox sarsıldılar. Qəsəbə sakini Luiza Dann adlı qadının üzərində zorakılıq əlamətləri olan cəsədi evindən bir neçə metr aralıda, meşəlik ərazidə aşkarlanmışdı. Hadisə böyük rezonansa səbəb olsa da sübut çatışmazlığı, texnologiyanın yetərsizliyi və şahidlərin susqunluğu səbəbindən qatilin kimliyini müəyyən etmək çox çətin idi. İllərlə davam edən araşdırmalar nəticəsiz qaldı və bu cinayət "dondurulmuş iş" olaraq arxivə qaldırıldı.

### Qatil gizlənməyi necə bacardı?

Luizanın ailəsi cinayətin açılması üçün bütün dövlət orqanlarının qapısını döydü. Düzdür, illər sonra bir neçə nəfər şübhəli kimi saxlanılmışdı, ancaq sübut olmadığından sərbəst buraxılmışdılar. Cinayətin törədildiyi ərazidə sonradan məskunlaşan Reylend Hedli adlı şəxsi hamı sadə və mehriban biri kimi tanıyırdı. Onun adı cinayətlə bağlı ilk araşdırmalarda çəkilsə də dəlil olmadığından istintaqdan kənarlaşdırılmışdı.



### Zəka və alqoritm. Süni intellekt cinayət açır

2023-cü ildə İngiltərə polisi arxivlərdəki dondurulmuş cinayətləri yenidən açmaq üçün süni intellekt və genetik analiz texnologiyasını birləşdirdi. Luiza Dann işi də bu layihəyə daxil edildi. Qurbanın geyimindən götürülmüş qan izləri müasir DNT texnologiyası ilə yenidən yoxlanıldı və Reylend Hedlinin genetik izləri ilə üst-üstə düşdü. Polis bununla yanaşı, qatilin psixoloji portretini yenidən quraraq onun davranışlarını analiz etdi. Bu profil Hedlinin illər ərzində göstərdiyi sakit həyat tərzi ilə üst-üstə düşürdü.

### Geri dönüşün sirri. Qatil niyə cinayət yerinə qayıtdı?

İstintaqçılar Reylend Hedlinin dəfələrlə cinayət yerinə qayıtdığını müəyyən etdilər. O, hadisədən sonra oradakı ağacların əkilməsi ilə belə maraqlanmış, qurbanın ailəsi ilə təsadüfi əlaqə qurmağa çalışmışdı. Bütün bunlar psixoloji profilin önəmini bir daha təsdiqləyir. Qatilin içindəki günah hissi onu hadisə yerinə gəlməyə məcbur etmişdi. Araşdırmaçılar qeyd edirlər ki, bu, klassik cinayət psixologiyası nümunəsidir - qatil törətdiyi əməllə psixoloji bağ qurduğu üçün cinayət yerindən ayrıla bilmirdi.

### 92 yaşında ədalətlə üz-üzə

Reylend Hedli 2024-cü ilin sonunda rəsmi olaraq həbs olunanda onun 92 yaşı vardı. Məhkəmə prosesində günahını inkar etsə də, təqdim olunan DNT sübutları və psixoloji profillər onu təkzib etdi. O, ömürlük həbslə cəzalandırıldı. Bu hadisə Birləşmiş Krallıqda "ən gec açılmış cinayət işi" kimi tarixə düşdü və 57 ildən sonra ədalət bərpa edildi.

Bu hadisə göstərdi ki, texnologiyanın inkişafı ilə yanaşı, polisin davamlı araşdırması, psixoloji yanaşma metodları cinayətlərin açılmasında və ədalətin bərpasında da böyük rol oynayır. Luiza Dann işi də polisin qanun çərçivəsində, insan hüquqlarına riayət edərək apardığı peşəkar istintaqın uğurlu nəticəsidir. Bu, həm də sübut etdi ki, kifayət qədər israrlı və peşəkar yanaşma olduqda sirrlər açılır, qaranlıqların üstünə gün işığı düşür.

*Aytən Tahirova*
*polis kapitanı*

# Məhkəmə nitqi necə olmalıdır?

## Mütəxəssislər bu nitq növünə maraqlı yanaşma sərgiləyiblər

*(Əvvəli ötən sayımızda)*

Məhkəmə nitqində cinayətin səbəbi xüsusiyyətində psixoloji suallar, prosesin iştirakçılarının şəxsiyyəti, cinayəti törətməyə yol verən səbəb və şərtlər tədqiq edildikdə bədii sözlərdən bacarıqla istifadə etmə zərurəti artır.

Məhkəmə nitqinin ifadəliliyi effektlik üçün yox, məhkəmə nitqinin çıxışının məzmununun auditoriya tərəfindən dərin anlanması, sübutların təhlili və qiymətləndirilməsi, iş üzrə onun tərəfindən təqdim olunan nəticələrin mahiyyəti üçün lazımdır. Güclü-qüvvətli və iti səsin nitqin ifadəliliyində böyük əhəmiyyəti var.

Nitqin ifadəliliyini və emosionallığını artıran danışıqdan kənar vasitələrə jest və mimikalar aiddir ki, bunları da tam doğru hisslər dili adlandırmaq olar. Nitqin tərkibi təbii olaraq və çox vaxt düşünülmədən möhkəmlənir, həmçinin nitqi canlandıran, onu gözlə görünən edən jest və mimika ilə güclənir. Həm emosional məna hərəkəti olan jest, həm də mimika öz funksiyasında geniş, dolğun və emosionaldırlar. Həm jest, həm də mimika dinləyicilər üçün aydın olmalıdır. Məhkəmə nitqində jestlər daha təmkinli, tez olmayan, bədii oxucu və dramatik aktyor jestindən daha şərti olurlar. Jest ümumiyyətlə nitq üslubu kimi olduqca şəxsidir, lakin buna baxmayaraq müəyyən qaydalar var ki, onlara riayət etmək lazımdır. Jestdən sui-istifadə etmək olmaz, çünki həddən artıq əl-qol hərəkəti natiqə kömək etmir, əksinə daha da mane olur, dinləyiciləri güldürür, onların fikrini nitqin əsas məzmunundan yayındırır.

Çətin ki, jest və mimikanı əvvəlcədən güzgü qabağında məşq etmək mümkün olsun. Müxtəlif insanlarda hisslər ayrı-ayrı jest və mimika ilə ifadə olunur. Bilmək lazımdır ki, jest və mimika fikirlərin aydın, çox vaxt intuitiv ifadə olunmasıdır. Bunların hamısı jestlərin və mimikanın məntiqi əsaslandırılmasını hazırlayır və təyin edir. Lakin buna baxmayaraq jest və mimika çox vaxt bir dəqiqəlik haldır və bu da onların təbiiliyi və cazibəliyidir. Məhkəmə natiqinin duruşunda, onun jesti və mimikasında, onun işgüzarlığı, sadəliyi, hazırlığı, səmimiliyi əks olunmalıdır. Beləliklə, jest və mimika, kinetik ünsiyyət sisteminin elementləri olaraq nitqin emosionallığı və ifadəliliyini gücləndirir və bununla da nitqin daha yaxşı mənimsənilməsinə kömək edirlər.

Təcrübə göstərir ki, məhkəmə natiqləri həmişə səs, intonasiya və jestdən nitqin ifadəliliyinin əlavə vasitələri kimi istifadə edə bilmirlər. Çox vaxt məhkəmə nitqlərinin söylənilməsində statiklik və adilik müşahidə olunur. Nitqdə əsas səs, intonasiya ilə seçilmir, jest və mimika ilə möhkəmlənmir. Bəzi natiqlər heç məhkəməyə və dinləyicilərə baxmırlar, hansısa bir tərəfə və ya stolun üstündə olan öz kağızlarına baxırlar. Bunların hamısı xoşagəlməz təəssürat yaradır və qətiyyən auditoriyanın düşüncəsinə və hisslərinə təsir etməyə kömək etmir.

Açıq nitq xalq qarşısında, auditoriya qarşısında çıxış deməkdirsə, o zaman məhkəmə nitqi məhkəmədə, məhkəmə auditoriyası qarşısında çıxış deməkdir. Bu o deməkdir ki, məhkəmə nitqi açıq nitqin bir növüdür, hətta yalnız bir dinləyiciyə – hakimə xitab olunmuş olsa da, o hər zaman şifahi səsləndirilir və hər zaman daxili monoloq kimi hazırlansa da, xaricdə ifadə olunur. Məhkəmə nitqi yalnız formaca monoloqdur, məzmunca isə o əksər hallarda dioloq kimi təsvir olunur. Məhkəmə natiqi özü-özüylə, təsəvvür olunan və ya həqiqi qarşı tərəflə, camaatla dioloq apara bilər. O, sanki özünə dinləyicilər adından suallar verir, opponent adından özünə etirazını bildirir və onları cavablandırır.

Məhkəmə nitqi yalnız məhkəmədə və yalnız məhkəmə iclasında çıxış etmək hüququna malik olan iştirakçılar tərəfindən səsləndirilən rəsmi və peşəkar nitqdir. Bunlara misal olaraq, hakimin, prokurorun (dövlət ittihamçısının) və vəkilin (müdafiəçinin) nitqləri göstərə bilərik.

Beləliklə məhkəmə nitqi – cinayət (mülki) prosesinin iştirakçısının məhkəməyə müraciət olunmuş və baxılan cinayət işi üzrə onun mövqeyinin izahına yönəldilmiş çıxışdır.

Qeyd edildiyi kimi, məhkəmə nitqləri tərəflərlə məhkəmə çəkişməsi zamanı səsləndirilir və onun əsas hissəsi sayılır. Bu həqiqətən də belədir.

Bütün məhkəmə nitqləri – həm cinayət prosesində, həm də mülki prosesdə 2 qrupa ayrılır.

*(Ardı gələn sayımızda)*

*Aynur Səfərli*

POLİS
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.
Qəzet həftədə bir dəfə çıxır. Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.
Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Polis"ə istinad olunmalıdır.
REDAKTOR: HAFİZ TƏMİROV
Qeydiyyat № 4326. İndeks: 66993
Sayı 11454
Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-95-69; 590-99-55; 590-99-30
E-poçt: metbuat@mia.gov.az
Qiyməti 40 qəpik